**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

№ 173 (1301) 21 sentyabr - 22 sentyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Tarixlərin şahidi Şamaxı

(əvvəli ötən sayımızda)

> **"... Kənd təsərrüfatının inkişafı üçün kreditlər, gübrələr, əlavə texnika verilir. Soyuducu anbarlar, taxıl anbarları tikilir. Yəni, biz istəyirik ki, bu inkişafa daha da güclü təkan verək. Çünki hər bir bölgədə, hər bir kənddə yaxşı şərait olsun, rifah artsın, iş yerləri açılsın və gözəl abadlıq işləri görülsün".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

**Məlum olduğu kimi Şamaxı rayonu həm də özünün aqrar sektoru ilə də həmişə diqqət mərkəzində olub. Bu gün də rayonda kənd təsərrüfatının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. İstər fermer təsərrüfatlarının, istər sahibkarlıq qurumlarının, istərsə də fərdi təsərrüfatların inkişaf etdirilməsi üçün həm dövlətin, həm də rayon İcra Hakimiyyətinin göstərdiyi diqqət və qayğı nəticəsində Şamaxı rayonunda kənd təsərrüfatının müxtəlif sahələrinin paralel inkişafı təmin olunmuşdur. Burada istər heyvandarlıq, istər əkinçilik sahələri demək olar ki, bir-birilə təmasda, yəni eyni bir qayğının, eyni bir himayənin altında hər gün daha uğurlu nəticələrə qovuşa bilir.**

Heyvandarlıq da rayon iqtisadiyyatında aparıcı sahələrdən birini təşkil edir. Bu ilin üç ayında rayonda iribuynuzlu mal-qaranın sayı artaraq 37425 başa, xırdabuynuzlu heyvanların sayı 162763 başa, quşların sayı isə 260179 başa çatdırılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. Həmin dövrdə ət, süd və yumurta istehsalı ötən ilin müvafiq ayları ilə müqayisədə xeyli artmışdır. Arı ailələrinin sayı isə 6866-a çatdırılmışdır.

Tarixi şəhər olan Şamaxının abadlaşdırılması və yenidən qurulmasından, sosial problemlərin həll edilməsindən də danışan Şamaxı rayon icra hakimiyyətinin başçısı Asif Ağayev qeyd etmişdir ki, şəhərin mərkəzində yerləşən 20 yanvar parkının əsaslı təmir etdirilməsi başa çatdırılmaq üzrədir. Nərimanov küçəsində yenidənqurma və abadlıq işləri aparılır. Küçədə yeni layihəyə uyğun olaraq xüsusi materiallarla barıların üzlənməsi, küçə boyu yeni yaşıllıqların salınması, piyadalar üçün səkilərin uzlənməsi, müəyyən yerlərdə xüsusi işlənmiş layihəyə uyğun yeni barıların tikintisi və digər işlərin görülməsi nəzərdə tutulmuşdur və bu işlər də görülməkdədir. Rayonun Şərədil kəndində 80 şagird yerlik tam orta məktəbin inşası başa çatdırılaraq məktəblilərin istifadəsinə verilmişdir, Mədrəsə qəsəbəsində 380 yerlik tam orta məktəbin, 5 saylı 100 yerlik uşaq bağçası-körpələr evinin, 36 mənzilli şəhid və əlillər üçün nəzərdə tutulmuş binanın inşası davam etdirilmişdir. Bundan əlavə, S.Ə.-Şirvani küçəsində inşası nəzərdə tutulan yeni 100 yerlik uşaq baxğası-körpələr evinin layihə sənədləri hazırlanmışdır. 4 saylı 100 yerlik uşaq bağçası-körpələr evinin tikintisi üçün RİH tərəfindən tender elan edilmişdir. Binanın tikintisi bu il nəzərdə tutulmuşdur. Rayonun Talışnuru və Hacıqədirli kəndlərində müasir tələblərə cavab verən məktəblərin tikintisi məqsədilə layihə-smeta sənədləri hazırlanmışdır. Kərkənc kənd məktəbində idman zalının tikintisi başa şatmaq üzrədir.



Rayonun 55-km-lik Şamaxı-Göylər-Çöl-Padar avtomobil yolunun tikintisi davam etdirilmişdir. Artıq yolun 48 km-lik məsafəsi təmir edilərək asfalt beton örtüyü vurulmuşdur. Bundan əlavə Pirquludan Dəmirçi kəndinə gedən avtomobil yolunda təmir işləri aparılır. Kəndin qarşısından keçən Pirsaat çayının üzərindən körpü tikintisinin layihə sənədləri hazırlanır. Hazırda hər iki yolda təmir işləri davam etdirilir: "Şamaxı rayonu istər tarixi keçmişi, istərsə də coğrafi şəraiti baxımından turizm üçün olduqca əlverişli bir zonadır. Məhz buna görə də rayona gələn turistlərin və istirahət mərkəzlərinin sayı ilbəil artır. Hazırda Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni turizm obyektlərinin tikintisi davam etdirilir".

A.Ağayevin sözlərinə 2016-ci ilin əvvəllərindən başlayaraq tikinti-quruculuq işləri ilə yanaşı təmizlik və yaşıllaşdırma işlərinin genişləndirilməsi də xüsusi diqqət mərkəzində saxlanılmışdır. Bununla bağlı rayonun idarə və müəssisələrinin iştirakı ilə kütləvi iməciliklər keçirilmiş, geniş yaşıllaşdırma tədbirləri icra olunmuşdur. İməciliklər zamanı Bakı-Yevlax magistral yolunun rayon ərazisindən keçən hissəsində, həmçinin Şamaxı şəhərinin müxtəlif yerlərində 1,5 min ədəddən çox ağac və gül kolları əkilmişdir. Hazırda həmin yaşıllıqlara lazımi qaydada aqrotexniki qulluğun göstərilməsi işləri davam etdirilir. Həmçinin yaz mövsümünün başlanması ilə əlaqədar magistral yolun, eləcə də şəhərin müxtəlif yerlərində geniş yaşıllaşdırma işlərinin aparılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.



2016-ci ilin birinci rübündə rayon ərazisində yeni qazlaşma, təmir bərpa və əsaslı təmir işləri davam etdirilmişdir. Ötən müddət ərzində 61 ədəd sayğac yenisi ilə əvəz edilmiş, 51 ədəd sayğacın yeri dəyişdirilmiş, 20 ədəd qaz sızması aradan qaldırılmış,172 ədəd yeni sayğac qoyulmuş və 518 sayğaca plomb vurulmuşdur. Rüb ərzində şəhərin Q.Namazəliyev, Z.Hacıyev, M.Ə.Rəsulzadə, Gənclər, Şirvan, Saqiyan və Mərzəndiyə kəndlərində əhalinin normal, təziqli və fasiləsiz qazla təmin etmək məqsədi ilə köhnə xətlər yenisi ilə əvəz edilərək siyirtmələr quraşdırılmışdır. Hazırda rayonun 41 yaşayış məntəqəsində 18084 abonent təbii qazla təmin olunur ki, bu da rayonda olan 20067 təsərrüfatın 90 faizini təşkil edir. Şamaxı şəhərinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə şəhərin 02 a, 01 b və 10 a saylı yaşayış massivlərinin layihə-smeta sənədləri hazırlanmış və yaxın vaxtda həmin küçələrə təbii qaz xəttlərinin çəkilişi nəzərdə tutulmuşdur.

**2016-ci ilin üç ayı ərzində rayonda "Azərişıq" və Şamaxı Elektrik Şəbəkəsi tərəfindən müxtəlif güclü transfarmator yarımstansiyalarında 420 m elektrik hava xətləri SİP kabellə, 10 kv-luq elektrik hava xətlərindəki 57 ədəd istismara yararsız dayaq və 2 km naqil yenisi ilə əvəz edilmişdir. Bundan əlavə 04 kv-luq elektrik verilişi xətlərində 41 ədəd istismara yararsız dayaq, 1,7 km naqil yenisi ilə əvəz olunmuş, 7 ədəd yanmiş transformator təmir olunaraq öz yerlərində quraşdırılmış və 17 ədəd 10/0,4 kv-luq transformator məntəqəsi cari təmir olunmuşdur.**

**(ardı gələn sayımızda)**

***Ceyhun Rüstəmov***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ